# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Naxçıvan Muxtar Respublikasında ümumi və suvarılan torpaqların torpaq mülkiyyətçiləri, istifadəçiləri arasında bölüşdürülməsi və torpaqdan istifadə edilməsinə dair 2026-cı il 1 yanvar tarixə tərtib edilmiş torpaq sahələri haqqında məlumatında muxtar respublika üzrə mövcud olan 550275 hektar torpaq sahəsinin 189741 hektarının dövlət mülkiyyətində, 303969 hektarının bələdiyyə mülkiyyətində, 56565 hektarının isə xüsusi mülkiyyətdə olduğu göstərilmişdir.

2025-ci ildə mövcud 177852 hektar kənd təsərrüfatına yararlı torpaq sahəsinin 36535 hektarını əkin, 2472 hektarını çoxillik əkmələr, 3177 hektarını biçənək, 19113 hektarını dinc, 103561 hektarını örüş və 12994 hektarını həyətyanı torpaq sahələrinin yararlı hissəsi təşkil etmişdir.

2026-cı il 1 yanvar vəziyyətinə suvarılan torpaqların sahəsi 64755 hektar olmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 7 iyun tarixli 94 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət torpaq kadastrının aparılması qaydaları haqqında Əsasnamə”nin 4-cü hissəsinin “b” bəndinə əsasən Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin müraciəti nəzərə alınaraq:

1. 2026-cı il 1 yanvar vəziyyətinə Naxçıvan Muxtar Respublikasının inzibati ərazi hüdudunda torpaq sahələrinin kəmiyyət və istifadəsi üzrə hesabat təsdiq edilsin (1, 2 və 3 nömrəli əlavələr).

2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Cabbar Musayev**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, “ 1 ” “ mart ” 2026-cı il

№ 22s